## Elektron xidmətlərdən istifadə sadələşdirilir

«Elektron hökumət» quruculuğu istiqamətində dövlət strukturları tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin çeşidinin artırılması qədər onlardan istifadənin maksimum sadələşdirilməsi, vətəndaşların bu xidmətlərə asan çıxışını təmin etmək də vacib amillərdəndir. Vətəndaşlara elektron imzanın verilməsi şərtlərinin sadələşdirilməsi də bu prosesin tərkib hissəsidir.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin məlumatına əsasən, hazırda elektron imza vəsiqəsinin alınması prosedurları daha da sadələşdirilir. Bu məqsədlə nazirliyin Məlumat Hesablama Mərkəzi tərəfindən elektron ərizə proqram məhsulu hazırlanıb. Bunun köməyi ilə istənilən vətəndaş internet üzərindən elektron ərizə formasındakı suallara cavab verməklə və onlayn qaydada ödəniş etməklə elektron imza kartı sifariş edə bilər. Sifariş Mərkəzə daxil olan kimi elektron imza sertifikatı hazırlanır və bu barədə vətəndaşa elektron poçt və telefon vasitəsilə məlumat verilir. Sertifikatının hazır olması barədə məlumat bildirişi almış vətəndaş Məlumat Hesablama Mərkəzindəki Qeydiyyat Mərkəzinə yaxınlaşıb, qanunvericiliyə əsasən, özünü identikləşdirməyə imkan verən şəxsiyyət vəsiqəsini təqdim edərək elektron imza sertifikatını alır.

Bununla yanaşı, hər bir vətəndaş, dövlət hakimiyyəti orqanı və hüquqi şəxslərin səlahiyyətli nümayəndəsi bütün respublika ərazisini əhatə edən qeydiyyat mərkəzlərinə müraciət etməklə elektron imza sertifikatı ala bilir. Amma birbaşa qeydiyyat mərkəzlərinə müraciət etməklə elektron imza sertifikatı əldə etmək üçün Bakı şəhərində minimum 3 gün, regionlarda isə 7 gün vaxt lazım gəlir. Bu vaxtın əsas hissəsi istifadəçi ərizələrinin sertifikat xidmət mərkəzlərinə, hazır məhsulların isə vətəndaşlara çatdırılmasına sərf olunur. Tətbiq edilən yenilik xidmətin keyfiyyətini yüksəltmək, vətəndaşların rahatlığını, eləcə də operativliyi təmin etməklə yanaşı, elektron imza sertifikatlarının alınmasında yarana biləcək vaxt itkisinin qarşısını da alır və bu addımın atılması sayəsində Azərbaycanda «e-imza» kartlarının istifadəçilərinin sayı artacaq. RİTN-in informasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri İsfəndiyar Əliyev bildirib ki, istifadəçilərin sayının artması həm də «e-xidmətlər»in kifayət qədər olmasından və onlara olan tələbatdan asılıdır. Qiymət siyasətinə gəldikdə isə İ.Əliyev vurğulayıb ki, fiziki şəxslər «e-imza» kartlarını aldıqda qiymətlərin aşağı düşməsi gözlənilir və kart 1 il müddətinə veriləcək. Hazırda beynəlxalq təcrübədə birdəfəlik və ya bir neçə dəfəlik kartlardan istifadə mövcuddur. Bu praktika Azərbaycanda da tətbiq oluna bilər.

Qeyd edək ki, dövlət orqanlarının elektron imza ilə təmin edilməsi məqsədilə RİTN tərəfindən qurulan Açıq Açar İnfrastruktur sayəsində bu günə qədər 28 quruma 2078 ədəd elektron imza verilib.

***«Elektron hökumət» portalına çıxış sadələşdirilir***

«Elektron hökumət» portalı vətəndaşlarla, dövlət müəssisələri və özəl sektorlarla işi dəstəkləyən əsas alətdir. Azərbaycan Nazirlər Kabinetinin təsdiqlədiyi «Elektron xidmət növlərinin siyahısı»na uyğun olaraq, 44 dövlət qurumu tərəfindən 282 elektron xidmət göstərilməsi nəzərdə tutulub. Bu qurumların rəsmi saytlarında ümumilikdə 395 elektron xidmət təqdim olunduğu halda, «Elektron hökumət» portalına (e-gov) onlardan yalnız 152-si qoşulub, 243 elektron xidmət isə hələlik

«e-gov»a daxil edilməyib.

Sözügedən siyahıda yer almış bütün elektron xidmətlərin «e-gov»a inteqrasiya olunaraq tam gücü ilə fəaliyyət göstərməsi üçün RTİN-in Məlumat Hesablama Mərkəzində müvafiq texniki mühit yaradılıb və bütün lazımi infrastruktur mövcuddur. Bu gün «Elektron hökumət» portalının fəaliyyəti yalnız təqdim edilən ümumi xidmətlərin konkret sayı ilə məhdudlaşmır. «e-gov» mərkəzi icra hakimiyyəti orqanları, həmçinin yerli özünüidarəetmə orqanlarının və informasiya sistemlərində fərdi məlumatlar formalaşdıran özəl sahələr tərəfindən müvafiq sahələr üzrə göstərilməsi nəzərdə tutulan elektron xidmətlərin sayından daha çox, hətta bir neçə min elektron xidmətin fəaliyyətinin təmin edilməsi üçün yetərli infrastruktura malikdir.

Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlərin təşkili hər bir xidmət üçün hazırlanan inzibati reqlamentə uyğun həyata keçirilir.

Hazırda dövlət strukturlarında elektron xidmətlərin müəyyən hissəsi «bir pəncərə» prinsipi üzrə təqdim olunur.

RİTN Məlumat Hesablama Mərkəzi vətəndaşların «Elektron hökumət» portalına çıxışını sadələşdirən sistem işləyib hazırlayıb. Qurumun məlumatına görə, portaldan istifadə etmək istəyən vətəndaş əvvəllər ona kod və parolun verilməsi üçün müvafiq qurumlara ərizə ilə müraciət etməli idi. Yeni sistem identifikasiya olunmuş məlumatları əldə etmək üçün elektron dövriyyə sistemini nəzərdə tutur.

Əvvəllər kod və parolun verilməsi üçün yalnız şəxsiyyət vəsiqəsində yer alan məlumatlar yetərli və əsas sayılırdısa, indi bu prosesdə vacib sənəd olan şəxsiyyət vəsiqəsi ilə yanaşı, vətəndaşın öz adına olan mobil telefon nömrəsi və ümumvətəndaşlıq pasportu (xarici pasport), sürücülük vəsiqəsi, Dövlət Sosial Sığorta Şəhadətnaməsinin birinin olması da mütləqdir.

Bu sənədlər elektron ərizə ilə müraciət zamanı vətəndaşla bağlı məlumatların düzgünlüyünü yoxlamaq üçün dəqiqləşdirmə aparılmasına, məlumatların sistem tərəfindən yoxlanmasına - identifikasiya edilməsinə yaranan ehtiyacı aradan qaldıracaq. Bundan sonra identifikasiya vasitəsi olaraq, sadalanan sənədlərdən birinin məlumatları ilə şəxsiyyət vəsiqəsindəki məlumatların tutuşdurulması təmin edilərək eyniliyi yoxlanılacaq. Bu yenilik «Elektron hökumət» portalı istifadəçilərinin əhatə dairəsini xeyli genişləndirəcək.

Arzu İBRAHİMOVA